

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

10 sentyabr 2020-ci il
Cümə axşamı

№ 32 (3497)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


# SABİTLİK, SAĞLAMLIQ VƏ TƏHSİL İNKİŞAFA YOL AÇIR



## Yeni məktəblərin tikilməsi, təmir edilməsi və təhsilin inkişafına təkan verən işlərin görülməsi möhtərəm Prezidentimizin təhsilimizə, gələcəyimizə göstərdiyi qayğının bariz nümunəsidir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verib. Bildirib ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, sinif və qrup otaqları, kitabxana, laboratoriyalar müəllim və tələbələrin ixtiyarına veriləcək. Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.

Yeni istifadəyə verilən korpuslardan birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Burada 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2 min diplomat və dövlət qulluqçusu təlim keçib.



Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlətimizin başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar. Ümumi ərazisi 4 hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Burada göllər də yaradılıb.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə də məlumat verib.

## "AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ƏFV MƏSƏLƏLƏRİ KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2016-cı İL 19 FEVRAL TARİXLİ 1792 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 312; 2018, № 6, maddə 1297; 2019, № 9, maddə 1487) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

**Komissiyanın üzvləri**

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi

Fikrət Məmmədov - Azərbaycan Respublikasının Ədliyyə naziri

Vilayət Eyvazov - Azərbaycan Respublikasının Daxili İşlər naziri

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Allahşükür Paşazadə - Şeyxülislam, Qafqaz Müsəlmanları İdarəsinin sədri

Əhliman Əmiraslanov - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Səhiyyə komitəsinin sədri

Zahid Oruc - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İnsan hüquqları komitəsinin sədri

Fazil Mustafa - Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Mədəniyyət komitəsi sədrinin müavini

Azay Quliyev - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Sədaqət Vəliyeva - Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Aynur Sofiyeva - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

Rəşad Məcidov - Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü

Əliməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri

Bəyimxanım Verdiyeva - "Xan Şuşinski" Fondunun rəhbəri

Mehriban Vəliyeva - Akademik Zərifə Əliyeva adına liseyin direktoru

**Komissiyanın katibi**

Kəmalə İsmayılova - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektorunun müdiri".

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 8 sentyabr 2020-ci il.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 3-də Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin və Azərbaycan Dövlət İqtisad Universitetinin Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusunun açılışlarında iştirak ediblər.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbdə aparılan əsaslı təmir işləri ilə tanış olub, bu təhsil ocağının yeni korpusunun açılışında iştirak edib.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərdəkan-Zuğulba avtomobil yolunda yerüstü piyada keçidinin açılışında iştirak edib.***

## Prezidentin reytinqi

Sosial Tədqiqatlar Mərkəzinin "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatı çap edilib. Hesabat 2020-ci ilin birinci rübünü - yanvar-mart aylarını əhatə edir.

Respondentlərin Prezidentə və hakimiyyətin hər üç qoluna (qanunverici, məhkəmə və icraedici) münasibətini öyrənmək məqsədilə bu qurumlara etibarlılıq öyrənilib. Belə ki, respondentlərin mütləq əksəriyyəti Prezidentə etibar etdiyini bildirib.

Prezidentə "Tam etibar edirəm" deyənlər respondentlərin mütləq çoxluğunu (90,8%) təşkil edib.

Bundan əlavə, respondentlərin mütləq əksəriyyəti tərəfindən ölkə başçısının ordu quruculuğu və Silahlı Qüvvələrin modernləşdirilməsi (96%) və xarici siyasət (95%) sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilib.

Ümumilikdə isə respondentlərin mütləq əksəriyyəti (92,8%) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyasından razıdır.

## BMT Azərbaycanın təşəbbüsünü alqışlayır

BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande koronavirus pandemiyasına qarşı mübarizədə ölkələrin əməkdaşlığı məsələsinə dair xüsusi sessiyanın keçirilməsi təşəbbüsünə görə Azərbaycana minnətdarlığını ifadə edib.

Ötən ay sessiyanın təşkilinə həsr olunmuş xüsusi görüşdə: "Baş Assambleyada pandemiya məsələsinə dair xüsusi sessiya keçirilməsi təklifi bu təhlükəyə qarşı mübarizədə beynəlxalq səylərin səfərbər edilməsi üçün etibarlı təməldir. Biz Azərbaycana minnətdarıq ki, o, Qoşulmama Hərəkatının sədri olaraq bu mühüm xüsusi sessiyanın keçirilməsi təşəbbüsü ilə çıxış edib",- deyə o, bildirib.

# POLİSİN KÖMƏYİ İLƏ ƏRSƏYƏ GƏLƏNLƏR

Bu gün vətənpərvərlik hisslərinin təbliği ilə yanaşı, dövrün tələblərinə cavab verən, gənclərin asudə vaxtının səmərəli təşkilinə həsr olunan, o cümlədən narkotiklərlə mübarizəyə yönəlik layihələr də daxil, bir sözlə, bütün sağlam təşəbbüslər dəstəklənir və köməklik göstərilir. İqtisadi yüksəlişin yaratdığı imkanlar intellektin, təxəyyülün ərsəyə gətirdiyi yeniliklərin cəmiyyətdə təbliğinə və tanıdılmasına xidmət edir.

***Özünütəsdiqə heç bir maneə yoxdur. Yaz, yarat, düşün və ideya ver. Bütün qapılar üzünə açıqdır.***

Dövlət başçımızın XXI əsrin insanının, azərbaycanlısının dünyanı fəth etmək naminə etdiyi çağırışlara hər zaman dəstək verməsi, gənclərin dövlət idarəçiliyində təmsil olunması daha modern Azərbaycanın siyasi, iqtisadi və hərbi gücünün gəncliklə bağlı olacağına bir işarədir.

Gəncləşməyə START verilib. Müsbət nəticələr var. ASAN-laşmaq, DOSTlaşmaq ideyası gerçəkləşdikdən sonra dünyaya örnək olacaq nümunələrə şahidlik edirik. Təcrübə mübadiləsi üçün dünyanın inkişaf etmiş dövlətləri tərəfdaşımıza çevrilir.

Əlbəttə ki, hər bir uğurun təməlində sabitlik durur. Sabitliyimiz sərvətimizdir və onu qorumaqdan ötrü hamılıqla səfərbər olmuşuq. Demokratik qaydalarla idarə edilən dövlətdə yaşamaq



xoşbəxtliyimizə bu gün sərhədlərimizin o üzündə günəşi qanla açılan, səmasından quşları perik düşən, sabahı sual altında qalan dövlətlərin vətəndaşlarının necə həsədlə baxmasını görmək imkanımız olsaydı, o zaman, nələrə sahib olduğumuzun dəyərini bəziləri anlayardı...

*XXI əsr Yaradıcılıq əsridir.* ***Ən güclüsü, ən gözəli, ən qiymətlisi uğrunda beyinlərin yarışı gedir. Kiçik bir informasiyadan OSKARLAR qazandıran möhtəşəm filmlər çəkilir, dünyanı silkələyən elmi yeniliklərə imza atılır.***

Və yeri gəlmişkən, bu gün ölkəmizdə incəsənətin bütün növlərinin inkişafı diqqət mərkəzindədir. Mavi ekranlarda onlarla bədii və sənədli film nümayiş olunur. Bəs bilirdinizmi ki, həmin sənət əsərlərinin, ekran işlərinin ərsəyə gəlməsində polisin də rolu böyükdür. Bilmirdiniz...

Ekranlaşdırılan ədəbi nümunələrin çəkilişi üçün məkan əsas şərtdir. Filmdə cərəyan edən hadisələrin daha canlı, daha obrazlı alınması lazım olan rekvizitlərdən, məkanın seçilməsindən, mizandan, aktyor oyunundan, rejissor təxəyyülündən çox asılıdır. ***Apardığımız araşdırma zamanı***




***son vaxtlar çəkilən filmlərin əksəriyyətinin vətənpərvərlik, cinayətkarlıqla mübarizə mövzularında olması diqqətimizi çəkdi. Film çəkilişləri ilə bağlı DİN-ə ünvanlanan müraciətləri incələdik. Gəldiyimiz qənaət bu oldu ki, həmin filmlərin çəkilməsində, ərsəyə gəlməsində DİN-in də əməyi danılmazdır. Çəkiliş zamanı aktyorların, kütləvi səhnələrdə iştirak edənlərin təhlükəsizliyini qorumaq üçün də polisə edilən müraciətlər çoxluq təşkil edir.***

Dəstək verdiklərimiz Daxili İşlər Nazirliyinin rəhbərliyinə təşəkkür etməyi də unutmurlar. "Xüsusi təyinatlı İbad", "Polkovnikin əmanəti", "Olimpia", "Mən qayıdacam", "Sonsuzluğa uzanmış gecə", "Ölüm qatarı", "Mən burda tək olmuşam", "Sevgi romanı", "Kölə", "Aldanmış hisslər", "Sonuncu pərdə", "Əfsanə qayıdır" kimi onlarla bədii və sənədli filmlərin çəkilməsinə görə edilən müraciətlərə DİN tərəfindən müsbət cavab verilmiş və lazımi köməklik göstərilmişdir.

**Rejissor Rəşad Nuri:** "Xüsusi təyinatlı İbad" bədii filminin birinci və ikinci hissələrinin çəkilişində lazım olan rekvizitlərlə bağlı DİN-ə müraciət etdik. Bir neçə gündən sonra bizi ora dəvət etdilər. Döyüş səhnələrinin çəkilməsində, hadislərin təsir gücünün artırılmasında, əsl müharibə effektinin yaradılmasında tanka, BTR-ə, iri və kiçik çaplı silahlara və əsgərlərə ehtiyac vardı. Sağ olsun, DİN və Daxili Qoşunların rəhbərliyi. Filmin çəkilişinə köməkliklərini əsirgəmədilər."

**Rejissor Natiq Novruzov:** "Biz sənət adamları hər zaman Daxili İşlər Nazirliyinin rəhbərliyindən diqqət və qayğı görmüşük. Ən çətin anlarda belə bu qurumun əməkdaşları köməyimizə çatıb, dadımıza yetiblər. Film çəkilişlərinə köməklik göstəriblər. Bütün tarixi dövrlərin xilaskarlıq missiyasını üzərinə götürən Azərbaycan Polisi incəsənətimizin, kinomuzun inkişafına da öz töhfəsini verir"...

Tarixin ən qanlı faciələrindən biri olan "Xocalı" filminin çəkilməsində yaradılan şəraitə görə də filmin yaradıcı heyəti DİN rəhbərliyinə minnətdarlıq məktubu ünvanlayıb. Bu siyahını daha da genişləndirmək olar.

***Görünən odur ki, üzləşdikləri problemlərin həllində köməklik göstərilməsi üçün Daxili İşlər Nazirliyinə sənət adamları da müraciət edir, diqqət və qayğı görürlər. Odur ki, seyr etdiyimiz bədii və sənədli filmlərin ərsəyə gəlməsində polisin də əməyi, rolu var fikrini deməyə haqqımız var.***

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Azərbaycanlılar uğrunda vuruşan ukraynalı...




**Qısa bir xatırlatma: Oleq Babak 25 fevral 1967-ci ildə Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində fəhlə ailəsində doğulub. Orta məktəbi bitirdikdən sonra 1985-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Ali siyasi kollecinə daxil olub. 1989-cu ildə kollecin məzunu olub və SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Xüsusi təyinatlı 21-ci briqadasında siyasi hissə üzrə 11-ci bölüyün komandir müavini vəzifəsində xidmət edib.**

Leytenant Oleq Babakın komandanlığında olan rota Qubadlı rayonunun Yuxarı Cibikli kəndində yerləşdirilmişdi. O zamanlar artıq erməni qəsbkarları Azərbaycanla həmsərhəd rayonlarda yerləşən kəndlərə hücum etməklə sakinləri qorxutmağa, yurdlarından didərgin salmağa cəhd edirdilər.

Yuxarı Cibikli kəndi də Ermənistanın Qafan, Görus rayonları tərəfindən mütəmadi olaraq hücumlara məruz qalırdı. Sovet qoşunları tərkibində Cibikliyə ezam edilmiş Oleq Babakın rəhbərliyi altında olan bölüyə dinc sakinləri müdafiə etməklə bərabər, həm də silahlı toqquşmanın qarşısını almaq tapşırılmışdı. Həmin il pravoslav xristianların Pasxa və Müqəddəs Müjdə bayramları aprelin 7-i bazar gününə təsadüf etmişdi. Bu nadir hallarda belə olurdu. Leytenant Babakın taleyinə də, görünür, son döyüşünə həmin gün çıxmaq yazılıbmış. Ermənilərin növbəti təxribatı nəticəsində Yuxarı Cibikli sakinlərindən iki nəfər itkin düşmüşdü. Onlardan biri meşəbəyi idi. Sakinlər bu haqda hərbçilərə məlumat verib. Leytenant Oleq Babak vəziyyətlə tanış olmaq və erməni yaraqlılarının hücumunun qarşısını almaq üçün kəndə gəlib. Onlar kəndə çatanda məlum olub ki, meşəbəyi öldürülüb, digər sakindən isə xəbər yoxdur. Bu zaman ermənilər növbəti dəfə hücum ediblər. Onlar Sovet əsgərlərinə də atəş açmağa başlayıblar.

Babakın serjantlarından biri, həmçinin sahə müvəkkili və meşəbəyinin axtarışına çıxan nişanlısı Gülnarə adlı xanım da döyüş zamanı yaralanıb. Erməni yaraqlılarına kömək üçün əlavə qüvvələr gətirildikdə və atışma intensivləşdikdə Oleq Babak yaralıları və yerli sakinləri döyüş meydanından çıxarmaq qərarına gəlib. Serjantlara əmr verir ki, yaralıları maşınla xəstəxanaya çatdırsınlar.

O, döyüş meydanında tək qalaraq iki saata yaxın erməni terrorçularına qarşı döyüşüb. Geriyə göndərdiyi Cibikli kənd sakinlərinə döyüş meydanından uzaqlaşmağa imkan yaratmaq üçün Oleq Babak ermənilərə müraciət edib sovet zabiti olduğunu deyir və atəşi dayandırmağa çağırıb. Onu yüzə yaxın erməni quldur mühasirəyə alıb.

Oleq Babak onları danışığa dəvət edib. Bu zaman qardaşı həmin döyüşdə öldürülmüş erməni yaraqlılarından biri arxadan yaxınlaşıb Babaka atəş açıb. Müxtəlif mənbələrə görə, Oleq Babak qeyri-bərabər döyüşdə təkbaşına 30-a yaxın erməni yaraqlısını zərərsizləşdirmişdi.

Bu şücaətinə görə Oleq Babak həmin ilin sentyabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

1991-ci ilin dekabrında SSRİ dağılır, beləliklə, Oleq Babak Sovet İttifaqının son qəhrəmanı olub. Ondan sonra bu adı alan olmayıb…

Doğma kəndində Oleq Babakın xatirəsi əbədiləşdirilib. Moskvada onun xidmət etdiyi 21-ci Xüsusi təyinatlı briqadanın yaxınlığındakı küçəyə adı verilib. Həmin briqadanın "Döyüşçülər muzeyi"ndə qəhrəmanın şəxsi əşyaları, silahı, sənədləri, haqqında mətbuatda yazılan sənədlər qorunub-saxlanılır.



Ukraynadakı Azərbaycan diasporunun nümayəndələri onun qəbirüstü abidəsini götürüblər, valideynlərini mütəmadi ziyarət edirlər.

Oleq Babak haqqında "AzTV", "Xəzər" telekanalları və Ukraynanın dövlət televiziyası film hazırlayıblar…

Dünən olduğu kimi bu gün də Azərbaycan və azərbaycanlıların haqq işi uğrunda vuruşanları, canlarından keçənləri unutmuruq, əziz xatirələrini daim hörmətlə anırıq.

*Elnarə Nəbiyeva*

# Xalqın hüzuru polisin qürurudur...

## Məktublardan: "Polis cəmiyyətdə ona görə söz sahibinə çevrilib ki, O, haqqın təməli olan ədaləti müdafiə və bərpa edir"

Belə bir deyim var: "Xalqın hüzuru polisin qürurudur". Dövlətin təmsilçisi kimi polisin Vətənimizin ən çətin günlərində həyatını riskə atmağının dəfələrlə şahidi olmuşuq. İnama, etibara və qarşılıqlı sevgiyə söykənən polis-vətəndaş həmrəyliyi sayəsində hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, polis ən çətin anlarda onun köməyinə gələcək, haqqını, hüququnu qoruyacaq. Şübhəsiz ki, bu inam yox yerdən yaranmayıb. Azərbaycan Polisi Vətən üçün, xalq üçün əsl fədakarlıq nümunəsidir və ədalətə açılan ilk qapıdır. Redaksiyamıza ünvanlanan məktublarda da bu fikirlər hakimdir.



**Xırdalan şəhər sakini Elçin Zeynalov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır: "Mən daxili işlər orqanlarında xidmət etdiyim vaxtlar Qarabağda, torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Amma veteran vəsiqəmi bu günə kimi almamışdım. Bu yaxınlarda müraciət etdim və vəsiqəmi aldım. Müraciətimə tez bir zamanda baxılaraq müsbət həllini tapmasında göstərdikləri köməyə görə DİN-in Arxivinin kollektivinə və Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşlarına minnətdarlığımı bildirirəm".

**Beyləqan rayon sakini Məhərrəm Məmmədov** oğurlanmış xırda buynuzlu heyvanlarının tapılaraq ona qaytarılmasında göstərdikləri köməyə görə Rayon Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını ifadə edir.

**Suraxanı rayon Yeni Günəşli qəsəbə sakinləri adından Əliheydər Məmmədov** təşəkkür məktubunda yaşadıqları ərazidə narkotik vasitələrin alqı-satqısı ilə məşğul olan şəxs barəsində etdiyi müraciətə tez bir zamanda baxılaraq onları narahat edən məsələnin həllini tapmasından yazır.

**Xalidə Məmmədova təşəkkürünü ifadə edir:** "Avtomobilimizdə yaranan nasazlıq səbəbindən yolda qalmışdıq və nə edəcəyimizi bilmirdik. Elə bu zaman 99-AP-617 dövlət nömrə nişanlı xidməti avtomobildə olan iki nəfər polis əməkdaşı bizə yaxınlaşıb lazımi köməklik göstərdilər".

**Bakı şəhər sakini Rafael Əlizadə** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, fədakarlıq nümayiş etdirdiklərinə görə Azərbaycan Polisinin xidməti fəaliyyətini təqdir edir.

**Zaqatala rayon sakini Həqiqət Əhmədova** məktubunda müraciətinə obyektiv baxılmasına və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməyə görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin şəxsi heyətinə təşəkkürünü ifadə edir.

*Aytəkin Nəcəfova,*
*Hüseyn Bağırov*

# Təhlükəsiz ölkələr sırasındayıq

Koronavirusun yayılması baxımından Azərbaycan təhlükəsiz ölkələrin sıralamasında 59-cu yeri tutub.

"Deep Knowledge Group" şirkəti araşdırma apararaq yüz dövlətin reytinqini hazırlayıb.



Qardaş Türkiyə 36-cı, Gürcüstan 40-cı, Rusiya 45-ci, Ermənistan isə 73-cü yeri tutur. Ən təhlükəsiz beş ölkə Almaniya, Yeni Zelandiya, Cənubi Koreya, İsveçrə, Yaponiya hesab olunur. Ən çətin vəziyyət Somalilend, Cənubi Sudan, Əfqanıstan və Malidə müşahidə edilir.

# Zaman "oğru"ları

**Sahib olduğumuz zaman dünyada mövcud olan ən qiymətli resursdur. Onu qorumaq və səmərəli etmək üçün də zaman lazımdır. Odur ki, təkcə pulumuzu deyil, zamanımızı da qənaətlə xərcləməliyik. Zamanımızı boşuna olan bəzi vərdişlərdən, keyfiyyətlərdən isə uzaq durmalıyıq. Bir az obrazlı desək, zaman "oğru"larını özümüzdən uzaqlaşdırmağımız mütləqdir. Çünki onlar həyatımızın bir hissəsidir və tez bir zamanda xilas olmaq müəyyən mənada zaman istəyir.**

**Bunlar zamanımızı oğurlayır;**

• "Yox" deməyi bacarmamaq;

• Hər şeyi eyni anda etməyə çalışmaq kimi pis vərdişə sahib olmaq;

• Yerinə yetiriləcək işin həcmi və müddəti ilə bağlı qaydaları pozmaq;

• Daim fayda gətirməyə və ətrafdakılara kömək etməyə çalışmaq;

• Öhdəsindən gəlməkdə aciz olduğumuz təbii lənglik;

• Cari işlər barədə müxtəlif qeydlər aparmaqdan imtina etmək;

• Həddindən artıq ünsiyyətcil olmaq, adətən boş söhbətlərə zaman ayırmaq;

• İş predmeti ilə tanış olmadan və lazımi hazırlıqsız işə başlamaq;

• Prioritet təyin etməyi bacarmamaq;

• Zamanın çoxunu sosial şəbəkələrdə, əyləncəli saytlarda keçirmək. Bunu daha az-az etmək olar, elə deyilmi?!;

• Nadir hallarda istirahət etmək. İstirahət çatışmamazlığı konsentrasiya olmağa və məhsuldar işləməyə mane olur;

• Şəxsi yaddaşınıza həddindən artıq etibar etmək;

• Fikrin dağınıq olması;

• Vacib işləri günün sonuna saxlamaq.

# SABİR İNDİ BALAXANINI GÖRSƏYDİ...

**Balaxanı deyəndə artıq gözlərimiz önünə zibil poliqonları, neft gölməçələri, mazutlu torpaqlar gəlmir. Bu tarixi yurd indi gəzməli-görməli turistik bir məkana çevrilib. Biz də "Mübariz keşikdə" olaraq "yüz eşitməkdənsə, bir kərə görmək yaxşıdır",-deyib yollandıq Balaxanıya. Gözlərimiz önündə bir başqa mənzərə vardı.**



Burada abadlıq, bərpa və təmizlik işləri aparılmış, hər tərəf gül-çiçəyə qərq olmuşdu. Məhəllə evlərinin qapılarında, hasarlarda müxtəlif rəngarəng, hətta maraq doğuran rəsmlər çəkilmişdi. İlk görüşümüz səmimi, "türkəsaya" sakinlər və uşaqlarla oldu. Bizi polis formasında görən uşaqların gözündəki sevinc, sakinlərin üzündəki təbəssüm o qədər şirin və doğma gəldi ki, sanki onları çoxdan tanıyırdıq. Salamlaşıb, hal-əhval tutduq və buranın belə dəyişdiyinin onlarda hansı təəssüratlar yaratdığı ilə maraqlandıq. Yaradılan şəraitə, dövlət başçımızın göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdilər. Balaxanıda asayişi qoruyan həmkarlarımızı da yaddan çıxarmadılar. Dedilər ki, bu işlərin ərsəyə gəlməsində polisin zəhməti çox olub. Polis olmasaydı bəzi xırda nüanslar qan qaraldar, işin gedişatına mənfi təsir edərdi. "Olar, sizinlə şəkil çəkdirək?",- deyib uşaqlar bizi dövrəyə aldılar. Adətən, valideynlər nadinclik edəndə uşaqları polislə, həkimlə qorxudurlar. Beləcə, kiçik yaşından onların beynində bu riskli peşə sahiblərinə qarşı bir qorxu hissi hakim kəsilir. "Bu şəkilləri məktəbə gedəndə uşaqlara göstərəcəyəm. Böyüyəndə mən də polis olacağam, elə kəndimizdə işləyəcəyəm". Bu sözləri bizə ərklə deyən, cəsarəti boyundan böyük oğlanın dərsləri ilə də maraqlandıq. Onlar məktəbin tez açılmasını, dərsə gedəcəkləri günü elə həsrətlə gözləyirlər ki...









Uşaqlarla söhbətin şirin yerində bizə bir ağsaqqal yaxınlaşıb salamlaşdı. "Allah sizi qorusun bala, sizin bu neçə ayda çəkdiyiniz əziyyəti itirmərik. Biz yaşlılara, qocalara göstərdiyiniz qayğını da heç vaxt unutmarıq. Həm də sayənizdə qəsəbədə çox cinayətlərin qarşısı alınıb"...

Yeri gəlmişkən, Balaxanının qədim tarixi var. Burada tikilən evlərin əksəriyyəti II Nikolayın dövründən qalıb. Hacı Şəhla məscidi Şirvanşahlar, Səfəvilər dövründə tikilib. Şah Səfi karvansarayı da bu qəsəbədədir. Uzun illər qum altında qalmış məhşur "Qum hamamı" da Balaxanının incilərindəndir. "O vaxtlar şah uzun yoldan qayıdanda bu hamamda dincələrmiş. Hələ Nobelləri, Rotşildləri demirəm. Onlar Balaxanının nefti ilə varlanıb və məhşurlaşıblar". Bunu da ağsaqqal diqqətimizə çatdırdı.

**Ərazinin sahə rəisi, polis mayoru Emin Babayev** dedi ki, qəsəbənin uşaqları xarici dilləri öyrənməyə həvəs göstərirlər. Bu, həm də qazanc yeridir. Qəsəbə sənətkarları da turistlərin diqqətini cəlb edən sənətkarlıq nümunələri hazırlayıb güzəranlarını yaxşılaşdırırlar.

Sakinlərlə qəsəbəni gəzib tarixi abidələrlə tanış olduq. Xatirə şəkilləri çəkdirdik. Bu görüş uzun illər yaddaşımızda qalacaq. Bəlkə də orada tanış olduğumuz balacalardan hansısa gələcəkdə polis mundirində qarşımıza çıxıb "Mən həmin o uşağam, turistlər məkanına çevrilən qəsəbənin sakini",- deyəcək...

**P.S. "Oxutmuram əl çəkin",-deyən Sabirimiz də Balaxanıda müəllimlik edib. Görəsən indi Sabir Balaxanını görsəydi...**

***M.K.***



# Cinayətkarın şəxsiyyətində bioloji və sosial amillərin nisbəti

*Əvvəli ötən sayımızda.*

Rafael Qarofalo öz antropoloji mövqeyindən dönməmək şərti ilə cinayətkarlığın sosial faktorlarına daha çox diqqət yetirir. O, müəllifi olduğu "Kriminologiya" adlı vəsaitdə psixikanın cinayətin törədilməsinə təsirinə xüsusi önəm verir. Bu vəsaitdə ilk dəfə kriminologiya termini də işlədilir. R.Qarofalonun fikrinə görə, cinayətkarı iki əsas insani hissin olmaması fərqləndirir: mərhəmət və vicdan. Ümumilikdə isə cinayətkar normal həyata uyğunlaşmağı bacarmayan şəxsdir. Onun törətdiyi cinayət isə bu anormallığın simptomlarıdır.

Özünü cinayət hüququnun pozitiv məktəbinin nümayəndəsi hesab edən Enriko Ferri isə "Cinayət sosiologiyası" adlı əsərində göstərirdi: "Cinayət hüququnun pozitiv məktəbi cinayət törədənin yalnız antropoloji tədqiqi ilə məşğul olmur. Bu tamamilə yenilənmiş elmi istiqamətdir və daha təsirli sosial və hüquqi mübarizə tədbirləri təklif edir. Cinayətlər və cəzalar haqqında elm əvvəlcə yalnız məntiqi düşüncə ilə yaradılmış sillogizmlərin irəli yürüdülməsindən ibarət idi. Bizim məktəb ondan pozitiv müşahidə elmini yaratdı. Bu elm antropologiya, psixologiya, cinayət statistikası, cinayət hüququ və həbsxana hüququna əsaslanan sintetik bir elmdir və mən onu "Cinayət sosiologiyası" adlandırmışam".

Göründüyü kimi, əsası Ç.Lambrozonun antropoloji tədqiqatları ilə başlayan təlim yekunda R.Qarafalo və E.Ferrinin araşdırmalarında sosial mühit amilinin də nəzərə alınmasını labüd etdi. Bu təcrübəyə görə insan davranışı həm bioloji, həm də sosial katalizatorların təsiri nəticəsində istiqamətlənir, onların biri digərindən ayrı bir təlim kimi inkişaf etsə də, nəticədə hər iki təlimin müqayisəsi əsasında verilməlidir.

Rusiya Federasiyası Tomsk Dövlət Milli Tədqiqat Universitetinin "Cəza-icra hüququ və kriminologiya" kafedrasının professoru Lev Prozumentov öz araşdırmalarında kriminologiyanın bir elm kimi yaranmasında iki böyük məktəbin rolunu xüsusilə qeyd edir. Onlardan biri Bekkariyanın məlum "Cinayətlər və cəzalar haqqında" əsərindən sonra 1764 və 1775-ci illərdə yaranan və sosioloji istiqamətə əsaslanan klassik məktəbdir. Digəri isə Ç.Lambrozo və ingilis biokriminoloqlarının antropoloji dəlillərə söykənərək inkişaf etdirdiyi pozitiv məktəbdir. Müəllif kriminologiyanın yaranma tarixini klassik məktəblə bağlasa da, antropoloji istiqamətdə olan tədqiqatların məzmununu və əhəmiyyətini daha diqqətlə araşdırmışdır. L.Prozumentov cinayət törədənin şəxsiyyəti ilə bağlı tədqiqatların yalnız Ç.Lambrozonun adı ilə bağlanılmasını düzgün qəbul etməyərək göstərir ki, hələ Ç.Lambrozodan da əvvəl ingilis biokriminoloqları C.Priçardın, H.Modslinin, B.Tomsonun, D.Uilsonun və H.Ellisin daha tutarlı tədqiqatları mövcud olmuşdur.

İngiltərənin bütün psixiatrik xəstəxanalarında olan C.Priçard cinayətin səbəbini psixi pozğunluqla bağlayır və bunun da mənbəyində irsi faktorun dayandığını qeyd edirdi. H.Modsli hesab edirdi ki, insanlar arasında olan fərqliliklər tərbiyə və şəraitdən asılı deyil, onlar bioloji məzmuna malik olmaqla təbiətlə bağlıdırlar.

Onun fikrinə görə insanların taleyi öz əcdadları tərəfindən yaradılır. Əsərlərində H.Modsli yazırdı: "Həqiqi oğru və həqiqi şair yaradılmır, onlar belə doğulurlar".

Şotlandiya həbsxanasının baş həkimi B.Tomson cinayət törədənlərin nəinki xarici, həmçinin daxili xüsusiyyətlərini tədqiq etməklə biokriminoloji tədqiqatların daha da inkişaf etdirilməsinə nail olmuşdu. O, cinayət törədənləri xarakterizə edən xüsusiyyətlərə aid edirdi: kiçik boy, soyuq baxışlar, onurğa əyrilikləri, nitqdə olan qüsurlar, zəif eşitmə, kobud sifət cizgiləri və s. B.Tomson qeyd edirdi: "Cinayət törədən insan yarısivil vəhşidir. Əgər köhnə oğrunun vicdanlı, dürüst insana çevrilməsi mümkündürsə, deməli, qoca tülkünü də həyət itinə çevirmək olar".

*Ardı gələn sayımızda.*

***Vüqar Mansurov,***
***polis polkovnik-leytenantı***

# TİKƏSİ "BOĞAZINDA" QALDI...

**Sumqayıt şəhər Polis İdarəsinə evlərin birindən 14 min 400 ABŞ dolları oğurlanması barədə müraciət daxil olub.** İdarə rəisinin əməliyyat işləri üzrə müavini, polis polkovnik-leytenantı Rauf Babaşovun nəzarəti altında idarənin və 3-cü Polis Bölməsinin əməkdaşlarından ibarət əməliyyat-axtarış qrupu dərhal hərəkətə keçib. Təxirəsalınmaz tədbirlər nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Tişkin Dmitrey Valeryeviç saxlanılıb.



İş ŞPİ-nin İstintaq şöbəsinin baş müstəntiqi, polis mayoru Namiq Mirzəzadəyə tapşırılıb. Müəyyən edilib ki, zərərçəkmiş Dmitreyin tanışıdır. Ənvərin mənzilini satdığını, əlində pulu olduğunu bilən Dmitrey xəstəxanada olan dostunu ziyarət edib. Birdən gözü həmin vaxt dostunun həyat yoldaşının çantasına sataşıb. Diqqətlərinin yayındığını fürsət bilən "dost" Ənvərin kirayə yaşadığı evin açarını çantadan götürüb və oranı tərk edib.

Sonra əldə etdiyi "qazancın" dadını çıxartmaq üçün qardaşı Alekseylə birgə Bakı şəhərinə gələrək yeyib-içiblər. Ancaq həmkarlarımızın peşəkarlığı və sayıqlığı sayəsində tikəsi "boğazında" qalıb. O, yaxalanaraq qanuna təslim edilib.

*****

**Daha bir uğurlu əməliyyat Nizami RPİ 25-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilib. Fotostudiyadan oğurluq edən şəxsin əməlinin üstü "isti izlər"lə açılıb.**

Belə ki, daxil olmuş məlumat əsasında yaradılan əməliyyat-axtarış qrupu hərəkətə keçib. Oğurluqda şübhəli bilinən Paşa Muxtarov saxlanılıb. Araşdırmalar zamanı maraqlı faktlar ortaya çıxıb. Bəlli olub ki, fotostudiyadan 3550 manatı oğurlayan Paşa peşəkar açar ustasıdır. O, nəfsinə yenik düşərək açar seçmə yolu ilə oraya daxil olduğunu, seyfi açaraq pulu götürdüyünü, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini də polis əməkdaşlarına etiraf edib.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Baş Narkotiklərlə Mübarizə İdarəsinə daxil olmuş məlumat əsasında Beyləqan şəhəri M.Ə.Rəsulzadə küçəsində kirayədə yaşayan, əvvəllər məhkum olunmuş M.İsmayılovun evində keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində oradan 1 kiloqram 750 qram tiryək aşkar edilərək götürülmüşdür.

*****

***Cəlilabad RPŞ-yə daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı şəhər sakinləri A.Başirov və əvvəllər məhkum olunmuş R.Ramazanov saxlanılmışlar.***

***A.Başirova məxsus "VAZ-21014" markalı avtomobilə baxış zamanı oradan 1 kiloqram 320 qram heroin və 1 kiloqram 680 qram metamfetamin aşkar edilərək götürülmüşdür.***

***Polis əməkdaşları tərəfindən qeyd edilən narkotik vasitənin Lənkəran şəhər sakininə satacaqları müəyyən edilmişdir.***

***Davam etdirilən tədbirlərlə əvvəllər məhkum olunmuş Q.Şirməmmədov saxlanılmışdır.***

*****

Sabirabad RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri zamanı rayonun Cəngan kənd sakini, əvvəllər məhkum olunmuş Ş.Hüseynovun yaşadığı evin həyətyanı sahəsinə baxış zamanı kultivasiya yolu ilə becərilmiş 27 ədəd çətənə kolu, 14 kiloqram qurudulmuş marixuana və narkotiki becərdiyi sahəni mühafizə etmək üçün istifadə etdiyi bir ədəd ov tüfəngi maddi sübut kimi aşkar olunaraq götürülmüşdür.

*****

***Şirvan ŞPŞ-yə daxil olmuş məlumat əsasında əməkdaşların keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini, əvvəllər məhkum olunmuş Y.Həsənovdan "Makarov" markalı tapança, 1 ədəd patron darağı və 5 ədəd patron aşkar edilərək götürülmüşdür.***

*****

Nərimanov RPİ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Aşumov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 11 kiloqram 800 qram marixuana aşkar edilərək götürülmüşdür.

*****

***Samux RPŞ və Dövlət vergi xidməti əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində rayon ərazisindəki zavodların birində iş otağındakı seyfdən "Makarov" markalı tapança, 24 ədəd patron, 2 ədəd patron darağı, "RQD" və "F-1" qumbaraları aşkar edilərək götürülmüşdür.***

*****

Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında Abşeron rayonu ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Lənkəran rayon sakinləri E.Quliyev və A.Dadaşzadə saxlanılmışlar. Şəxsi axtarış zamanı E.Quliyevdən 2 kiloqram 20 qram, Ayxan Dadaşzadədən isə 1 kiloqram 20 qram heroin aşkar edilərək götürülmüşdür.

*****

***İmişli RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqust ayından sentyabrın 7-dək olan müddətdə Göbəktala kənd sakini H.Əliyevin evinin həyətindən 12 baş qoyun oğurlamaqda şübhəli bilinən kənd sakini, əvvəllər məhkum olunmuş İ.İsmayılov saxlanılmışdır.***

***Faktla əlaqədar Cinayət Məcəlləsinin 177-ci (oğurluq) maddəsi ilə cinayət işi başlanmışdır.***

# DÜNYAYA PƏNCƏRƏ

Türkiyənin təhlükəsizlik qüvvələri Diyarbəkir vilayətində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı xüsusi əməliyyat keçirib. Əməliyyat nəticəsində 67 fərqli məkanda narkoplantasiya aşkarlanıb. Ümumilikdə, 4 milyon 623 min 280 ədəd yaş, 800 kiloqram isə qurudulmuş kol aşkarlanıb. Təsbit edilən ərazilərdə narkotik tərkibli bitkilərin becərilməsi üçün istifadə edilən alətlər, o cümlədən su boruları və nasoslar götürülüb.

*****

ABŞ-ın Massaçusets polisinin narkotiklərin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması məqsədilə keçirdiyi irimiqyaslı əməliyyat zamanı 45 avtomobildən ibarət kolleksiya marağa səbəb olub.

Furqonu saxlayan polislər onun içərisində 62 kiloqram marixuana aşkar edib. Şübhəlinin evində aparılan yoxlama zamanı marixuana dolu 6 kisə, 1 milyon dollar nağd pul, müxtəlif silahlar və 45 avtomobildən ibarət olan kolleksiya heyrət doğurub.

Dəbdəbəli malikanəyə çevrilmiş yanğınsöndürmə deposunda saxlanılan avtomobillərin arasında 8 ədəd nadir tapılan "Toyota Mk4" Supra sportkarı və müxtəlif "BMW M3" modelləri aşkar olunub. Avtomobillərin arasında "Nissan Skyline", "Mitsubishi Lancer Evo" modelləri diqqət çəkib.

*****

Rusiyada Yol Patrul Xidmətinin əməkdaşları "Orenburq – Orsk" avtomagistralında yerləşən stasionar postda xidmət aparan zaman avtomobil daşıyan yük maşınını saxlayıblar. "Renault Premium" markalı maşının qoşqusunda 8 ədəd avtomobil olub: "Toyota Camry" (2 ədəd), "Kia" (2 ədəd), "Toyota Land Cruiser" , "Land Rover" və "BMW".

Sənədləri yoxlayan və avtomobillərə baxış keçirən polis əməkdaşları 6 nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin saxta olduğunu, "BMW"-nin isə İnterpol tərəfindən axtarıldığını müəyyən ediblər.

Araşdırma zamanı, saxta sənədli avtomobillərin Rusiyanın müxtəlif regionlarından, "BMW"-nin isə Almaniyadan qaçırıldığı məlum olub.

Bütün nəqliyyat vasitələri müsadirə olunaraq cərimə meydançasına yerləşdirilib. Bildirilib ki, avtomobillər sahiblərinə geri qaytarılacaq.

*****

Almaniya hökuməti ölkədəki qaçqın yataqxanalarının mühafizəsini daha yaxşı təşkil etmək məqsədilə 630 milyon avro ayrılıb.

Koronavirus pandemiyası Almaniyada qaçqın yataqxanalarındakı bir çox çatışmazlıqları ortaya çıxarıb. Onlardan biri də yataqxanalarda təhlükəsizliyin təmin edilməsidir. Almaniya Federal Daxili İşlər Nazirliyindən bildirilib ki, yataqxana sakinlərinin karantin qaydalarına riayət etməsinə nəzarətin istənilən səviyyədə təmin edilməməsi səbəbindən koronavirus testi müsbət çıxan sığınacaq axtaranların sayı durmadan artır. Yataqxanalarda koronavirus tədbirləri ilə bağlı kifayət qədər maarifləndirmə işləri aparılsa da, sakinlər nadir hallarda bu qaydalara riayət edirlər.

Vurğulanıb ki, yataqxanaların təhlükəsizliyi təkcə şəxsi heyət hesabına gücləndirilməyəcək. Belə ki, müasir müşahidə kameralarının qurulması, giriş-çıxışların xüsusi çipli kartlar vasitəsilə təmin edilməsi sığınacaq axtaranları nəzarət altında saxlamağa imkan verəcək.

*****

Yaponiyada Okinava prefekturasının polisi, yerli sakinlərə sərxoş vəziyyətdə yolda və səkidə yataraq qəzaya səbəb olmamaları barədə müraciət edib. Polis rəisi alkoqollu içki qəbul edən insanların gah səkidə, gah da ki, yolun hərəkət hissəsində yatdıqlarını bildirib. Onun sözlərinə görə, ötən il sürücülər 16 belə sərxoş insanı vurub, onlardan 3-ü aldığı xəsarətlərdən ölüb, bir çoxlarının isə bəxti gətirib.

O qeyd edib ki, hətta, bir neçə sərxoş qızın soyunaraq, yolu "sevimli çarpayı"sı kimi qəbul edib yatdığının da şahidi olublar: "Bu cür hallarla bağlı polis yalnız xəbərdarlıqla kifayətlənmir. Qayda pozanlar inzibati məsuliyyətə cəlb olunaraq, əməkdaşlarımız tərəfindən barələrində protokollar yazılır və 50 min yen (805 manat) məbləğində cərimə olunurlar".

*****

Tehranda və Əlburz əyalətində saxta tibb bacısı vəsiqəsi ilə işləyən "səhiyyə işçiləri" və saxta sənədləri hazırlayan şəxslər tutulub. Bu barədə Əlburz əyalətinin polis rəisi məlumat verib. Onun sözlərinə əsasən, saxta vəsiqə ilə işləyən 11 "səhiyyə işçisi" və saxta sənədləri hazırlayan 2 nəfər həbs edilib.

Onlar hər bir saxta sənəd üçün 5 milyon tümən (140 manat) pul tələb etdiklərini etiraf ediblər. Bundan əlavə, tutulan şəxslər 75 nəfərə saxta səhiyyə sənədi düzəldiblər.

*C.Natiq*

## Sentyabr ayının 2-dən 8-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 156 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 60 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 165, o cümlədən borclu şəxs qismində axtarışda olan 72 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 2 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 88 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### YEMƏK VAXTI İSTİFADƏ EDİLƏN MASKALAR

Yaponiyanın Kioto şəhərində yerləşən Saqa İncəsənət Universitetinin tələbələri koronavirus pandemiyası dövründə yemək vaxtı istifadə edilməsi nəzərdə tutulan xüsusi maskalar hazırlayıblar.

Kağızdan və ya xüsusi materialdan hazırlanan həmin maskalar tutacaqla təmin edilib.

Təklif edilən maskaların münasibliyi və yemək vaxtı ondan istifadənin rahat olduğu qeyd edilib. Həmçinin bu maskaların virusun yayılmasına qarşı səmərəli olduğu da vurğulanıb.

Yemək üçün maskaların ideya müəllifi, Saqa Universitetinin rektoru Sasaki Masako isə koronavirus pandemiyası dövründə bu maskaların yemək vaxtı masa arxasında istifadəsinin səmərəli olacağına ümidvar olduğunu bildirib.

### İKİ MİN İL TARİXİ OLAN BƏND

Türkiyənin Konya vilayətinin Bozdağ Milli Parkının ərazisində təxminən iki min il əvvəl Roma İmperiyası tərəfindən inşa edilən su anbarına aid bənd aşkarlanıb.

Uzunluğu 110, hündürlüyü isə 10 metr olan bənd 2017-ci ildə başladılan "Milli park və ətrafındakı tarixi yerlərin araşdırılması" layihəsi çərçivəsində tapılıb. Araşdırmalar təxminən 60 min kvadratmetr ərazini əhatə edir. Bəndin Roma İmperiyası tərəfindən ordunun buradan keçidi zamanı su ehtiyacını qarşılamaq məqsədilə tikildiyi ehtimal olunur.




### İŞ MƏKANINA ÇEVRİLƏN AVTOMOBİLLƏR

Yaponiyanın məşhur "Toyota Motor" və "Softbank" informasiya texnologiyaları şirkətləri tərəfində birgə maliyyələşdirilən startap firması interyeri asanlıqla iş məkanına çevrilə bilən çoxməqsədli avtomobil hazırlayıb.

Avqustun 27-də satışa çıxarılan avtomobil əsasən şirkətlər və dövlət strukturları üçün nəzərdə tutulub.

"Toyota" şirkətinin 10 yerlik yüngül yük maşını bazasında hazırlanan avtomobilin döşəməsi oturacaqları asanlıqla hərəkət etdirməyə imkan verən xüsusi istiqamətvericilərlə təmin edilib. Buraya masa əlavə etməklə asanlıqla əlverişli iş məkanı yaratmaq olar.

Avtomobil dövlət müəssisələri və şirkətlər tərəfindən mobil ofis və ya xidməti piştaxta kimi istifadə edilə bilər.

Gələcəkdə həmin avtomobillərin onlayn-dispetçer xidmətinə qoşulması da nəzərdə tutulur.

*Hazırladı: Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10156
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik